# Rəngarəng sərgilər

**Qax Rayon Rəsm Qalereyası öz işini əvvəlcədən müəyyənləşdirilən perspektiv tədbirlər planı əsasında qurmuşdur. İl ərzində qalereyada və ondan kənarda sərgilər təşkil olunmuş, incəsənət adamlarının yaradıcılığından söhbətlər aparılmışdır. 2010-cu ildə qalereyada 9 sərgi təşkil edilmişdir. Bundan əlavə mühazirə və söhbətlər keçirilmişdir.**

Burada "20 yanvar faciəsi" adlı sərgi, "Novruz-2010", "Mən fəxr edirəm ki, Azərbaycanlıyam", "28 May Milli İstiqlal Günüdür", "Dünya uşaqların gözündə", Qax rayon İncəsənət Məktəbi şagirdlərinin diplom işlərindən ibarət sərgilər təşkil edilmişdir.

"20 yanvar faciəsi" sərgisində 18 ədəd fotoşəkil istifadə edilmişdir. Novruz bayramına həsr olunmuş sərgidə torpağın oyanması, kəndirbazların oyunları, keçəlin, kosanın müxtəlif oyunlarını əks etdirən 15 rəsm əsəri hamını heyran qoydu. "Mən fəxr edirəm ki, Azərbaycanlıyam" sərgisində incəsənət məktəbi şagirdlərinin əl işlərindən istifadə olunmuşdur.

Sərgidə Azərbaycan mənzərələri, xalqımızın şərəfli keçmişi, müxtəlif təbiət təsvirləri öz əksini tapmışdır. Şagirdlərdən Ümugül Bəkirova("Kənd") 1-ci, Banu Abbasova ("Mənim kəndim") 2-ci, Nazi Nadirova ("Koroğlu") 3-cü yerə layiq görülmüşlər.

"28 May Milli İstiqlal Günüdür" sərgisində fondda olan əsərlərin 11-dən istifadə olunmuşdur. Xalqımızın istiqlaliyyət uğrunda keçdiyi şərəfli yolu sərginin əsas mövzusu olmuşdur. "Dünya uşaqların gözündə" sərgisində baxışa 11 rəsm əsəri çıxarılmışdır. Burada incəsənət məktəbinin aşağı sinif şagirdlərinin əl işləri nümayiş etdirilmişdir.

Əsərlərin əsas mövzusunu tarixi keçmişimiz, təbiət lövhələri, bədii əsərlərə illüstrasiyalar təşkil etmişdir. Sərgidə həmçinin incəsənət məktəbi şagirdlərinin 20 diplom işi nümayiş olunmuşdur.

**Əsərlərdəki mövzu rəngarəngliyi tamaşaçıların çox xoşuna gəlmişdir. Qalereyanın foyesində təşkil edilmiş sərgi iştirakçıların zövqünü oxşamış, onlarda nikbin əhvali-ruhiyyə oyatmışdır.**

**Pərvin MÖHLƏDDİNLİ**